**Çingiz Hüseynov**

# Doktor N

Tərcüməçi:
İlqar Əlfi

QANUN NƏŞRİYYATI

**Чингиз Гусейнов**

# ДОКТОР N

Çingiz Hüseynov "Doktor N" romanını on ildən artıq bir müddətdə, arxiv materiallarının üzə çıxarılması əsasında yazıb ərsəyə gətirib. İki hissəli bu romanın birinci hissəsində Nərimanov, ikinci hissəsində isə Məmməd Əmin Rəsulzadə əsas qəhrəman kimi təqdim edilir.

Əsərin həsr olunduğu, ixtisasca həkim olan Nəriman Nərimanov – sağ qalan Bakı komissarlarından biri, Azərbaycanın İnqilab Komitəsinin sədri, SSRİ MİK-in (Mərkəzi İcraiyyə Komitəsinin) sədri olub və 1925-ci ildə müəmmalı şəraitdə vəfat edib. Ölümündən iki ay əvvəl o, oğluna məktubla öz vəsiyyətini yazmış və sanki gələcəyi görürmüş kimi, bizim onilliklər sonra anladığımız həqiqəti o vaxtdan dərk etmişdi.

**Чингиз Гусейнов  ДОКТОР N**
**Çingiz Hüseynov   DOKTOR N**

Janr: tarixi roman, bioqrafiya
Yaş qrupu: 14+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 384

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: İlqar Əlfi
Korrektor: Əyyar Tahir
Qapaq dizaynı: Rafael Qasım
Mətn dizaynı: Ramin Əli

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-606-68-3

© Qanun Nəşriyyatı, 2026

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

## MÜNDƏRİCAT

### Birinci kitab


Proepiloq, *yaxud* sonun başlanğıcı .....................................8
Ümidin şüarları..........................................................................13
Özgəsinin gözlərilə ..................................................................16
Əfsanəvi asketizmin hipnozu ...................................................25
Oğluma məktub .........................................................................28
Uzaq fəsil, yaxud Şəxsi tale ......................................................32
"Quran"dan: hər dövrün özünün müqəddəs kitabı var ........ 39
Kapitalın hakimiyyəti............................................................... 46
Mübtəlalıq ................................................................................. 51
Adsız fəsil, yaxud Balaca Volodya .......................................... 60
"Oxranka" agentlərinin (*hər iki nəfərdən biri*) kartotekası .. 70
Qafqaz məntiqi .......................................................................... 73
Yeddinci gün ............................................................................. 79
Tamaşa kimi fəsil, yaxud çarların edamı ................................. 86
Rəngli fəsil, yaxud yaşıl, qırmızı, mavi ................................. 94
Rus feilləri türk dilinə tərcümə et ............................................ 98
Teleqrafın qaynar lentləri ......................................................... 106
Qanlı fəsil ................................................................................... 110
Mart savaşı ................................................................................. 115
Hipotetik təşbehlər .................................................................... 117

Bəxt ulduzu ........................................................................ 126
Və hər inancın müqəddəs bayramları qalsın........................ 140
Növbəti fəsil, yaxud Səltənət gücü ..................................... 145
Kim kimi ............................................................................. 155
Çərxi-fələyin hoqqaları ....................................................... 163
Ağrın ürəyimə, sənə qurban *(unudulan mahnılardan)*......... 172
Nə qədər gün keçdi ............................................................. 182

**İkinci kitab**

Arzular fəsli, yaxud qovaq tiftiyi ....................................... 194
Həlledici fəsil, yainki, Zəfər ............................................... 198
Və qabağına qatıb qovur ..................................................... 207
Taktiki fəsil və ya hər iki yanın uçurumdur ......................... 210
Planlar yetişirdi ................................................................... 212
Və rəqəmlə: iyirmi yeddi .................................................... 216
Qanı qanla yumazlar, "Quran"dan kəlam ............................ 221
Ah-ufların sədası uzaq şimşək gurultusu kimidir ................ 225
Görünənlər fəsli, yaxud müəmma olanların Dəmir çəpəri .. 239
Miflər, ya da qanların qarışması: turan, fars, aqvan,
elə hind də! Ruslar da! Hətta erməni?! Daha kimlər?.......... 247
Qurd qapısı .......................................................................... 258
Bir dəfə yüksələn bayraq bir daha enməz, yaxud
kitab fəsli ............................................................................262
Altı cızılmış fəsil, ya da Cənnətin qapısının açarları ........... 269
Sönməz mayak .................................................................... 269
Dözülməz istinin psixonevropatik qarabasmaları ................ 290
Fəsil… – sayca neçənci olduğunun hesabını itirdim, indi o
qədər mühüm də deyil axı, yaxud tindəki ev ...................... 300

Səssiz filmin kadrları ........................................................ 306
Sadəlövhlüyün bixəbərliyi, yoxsa avamlığın
sadəlövhlüyü ................................................................ 313
Və zirvəni aşdıq .......................................................... 315
Qəfil ziyarət, yaxud vida fəsli.............................................. 323
Gələcəyi görənə mədhiyyə................................................ 328
Gələcək keçmişə yıxılıb, indisi yoxdur *(elə bil heç olmayıb da):*
çılğın izlənmə.............................................................. 338
Dar çevrədə, yaxud Stenoqrafik fəsil.................................. 343
Pərdə səssizcə aralandı.................................................. 348
Bu da sənin bütün öncəgörmələrin .................................... 353
Sonuncu fəsil, *yaxud* Qızıl meydanda təntənəli dəfn
mərasimi..................................................................... 357
Adların kataloqu.............................................................369

# Birinci kitab

*Yazılmamış romanın yalnız təxəyyüldə var olan, gözəgörünməz qalmış xalının mürəkkəb çeşnisini xatırladan real səhifələri: nəzərində tutduğun məcraya düşüb, özünü dərk etmək kimi əbəs bir ümidlə, öləzimək bilməyən həyəcanını başından eləmək istəyilə o çeşnini əbədi qalacaq bir xalıya toxumaq...*

*Bütün sirlərin faş olunduğunu düşündüyün anda yenisini duymaq. Bu nədir belə? Böyük zəkanın söyləmədikləridirmi, qəribə axmaqlığın sükutudurmu?...*

## *PROEPİLOQ, yaxud SONUN BAŞLANĞICI*

bol qarlı-çovğunlu, qarışıq yuxuları saysız olan yanvar ayında göyün üzü yerə endi, torpaq adət etdiyimiz möhkəmliyini itirib ayaq altında əsdi, həyat iki parça oldu: bir tərəfində yaşanmış illər qaldı – o əlli beş il öz dəyərinə görə, səbatlı sayılırdı – bu tərəfdə isə, ölümün işıq saldığı günlər idi və onların sayı da sayı elə əlli beşdir.

Amma həyatın yaddaşdan silinən parçaları, ucunu itirdiyin kələfi var – Şərqin xeyir-duası unudulub, Yer üzündə daha kimsə qalmayıb ki, vəsiyyətə əməl etsin: *həqiqəti bilə-bilə, gizlətmək üçün inad göstərib onu yalana bü-*

*rüməyin.* Bunlar nədən danışır axı; biz heç bilirikmi ki, kim nədən danışır...

Yaxşı, bəs onda bu nədir belə – uzun ömür yaşayasan və onun lap qürubunda başqa bir həyatın olmadığından sarsılasan? Elə bil, başqalarına görk olsun deyə, kimsə o ömrün bütün kağız-kuğazını saxlayıb ki, vaxtı çatanda, gündəlik qayğılarından uzaqlaşıb keçmişi dərk eləsin. Bu möhkəm, burma qaytan çar zamanlarındakı kimi çalın-çarpaz bağlanıb… çoxdan açmırdı onu; üz qabığında özünə aid olan, tələsik yazılmış böyük "N" hərfi. İndi, lap nağıldakı kimi qorxur – qorxur ki, cini şüşədən buraxsın və sonra yerinə sala bilməsin; qorxur ki, yaşadığı illər, olanlar və olmayanlar onu cari işlərindən yayındırsın… Yox, vaxtı çatmayıb, bu qaytanı hələ açmayacaq.

Bir ildir ki, Lenin yoxdur. Elə bilirdi ki, onlar təzə peyğəmbərlər, İliç isə, tanrılarıdır, eləmi? *Ağıldankəmlik* daha necə olar ki? Bir zamanlar, ZSFSR abbreviaturasının gözəlliyinə heyran qalmışdı – …Zaqafqaziya federasiyası tezliklə içindən dağılacaq, köhnə ziddiyyətlərin, çəkişmələrin davamı kimi yox olacaqdı: fikir ayrılıqları, mübahisələr, küsüşməklər; *biz sizə neft, siz bizə…* Yadındadı, Bakıda, hakimiyyətdə olanda, bunu özü də istəyirdi: təyyarələrə böyük ehtiyac vardı, Tiflisdə isə onlardan çox idi – hələ imperialist müharibəsindən qalmışdı. Onları Azərbaycanla bölüşmək olmaz ki? Tezliklə federasiya da dağılacaq, amma hələlik, Mərkəzdə onu Nərimanov təmsil edir: Kalinin – *RSFSR-in*, xarkovlu Petrovski – Ukraynanın, bir də, cavan belorus Çervyakov – Nəriman onun atası yaşda olardı – Belorusiyanınkı idi, onlar *SSRİ MİK sədri*

*kimi, növbələşirlər* və bir də, *Mərkəzi İcraiyyə Komitəsi vardı;* bu adamlar ali icra hakimiyyətini təmsil etsələr də, onların səviyyəsində həll olan heç nə yox idi.

Necə yəni?!

*Daha güclü fiqurlar var.*

Koba?...

– Yenə başladın! – arvadının səbirsiz səsi eşidilir. – Qurtar da! – Gülsüm Nərimanova məruz qaldığı hücumları xatırladacaq: səni öz yerlilərin daşa basdı, qovdular ordan… Hə, onların qisməti ancaq *öz* neftlərindən ayrılacaq paya bel bağlayaraq, ehtiyaclarını əsaslandırıb xahiş etmək idi – bu çöllərdə iqlim dözülməz olurdu – traxoma, Abşeronun neftlə zəhərlənmiş şoranlıqları… Və bunu heç cür boynuna almaq istəmirdi. Bəllidir ki, o xahişnamələr qaz ləlyilə, üstəlik ucu yonulmamış lələklə yazılır deyə, kağıza mürəkkəb ləkəsi salır. Özündənmüştəbehlik, hər şeyə yuxarıdan aşağı baxmaq; onların qulağını da elə yuxarıdakılar doldurmuşdu, Koba da elələrinin arasında idi. Bir də ki, Serqo vardı… hər yanda var, özü də, o üçün həmişə haqlı olur.

*– Dünən sən başqa şey deyirdin axı…*

*– Dünən, dünəndə qaldı!*

Bir də, səmimiyyətinə heç vaxt inanmadığı Mikoyan! Kirov vardı! *Mironıç?!* Kinayəylə gülümsündü: tərkibə bax, lap beynəlmiləlçi oldu… amma, hansından? Üstəgəl, ən əsası – onunla həmyerli olan türklər – onların sözü də xəncər kimi lap ürəyinə saplanır!

Nəriman bu ümiddəydi ki, İliç onu müdafiə edəcək, amma, o da yoxdur, artıq silinib həyatdan – diplomlu hə-